*"Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir".*

**Heydər ƏLİYEV**



AZƏRBAYCAN

SİLAHLI QÜVVƏLƏRİ

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 noyabr 2014-cü il № 83 (1900) Qiyməti 25 qəpik

## Rəsmi xronika

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da BMT-nin ictimai məlumat şöbəsinin rəhbəri Maher Nasseri, BMT baş katibinin gənclər üzrə elçisi Ahmad Rafi Mohamad Alhendavini, Avropa Şurasının demokratiya üzrə baş direktoru Snejana Samardjiç-Markoviçi və UNESCO baş direktorunun köməkçisi Lalla Aişa Ben Barkanı qəbul edib.***

***Prezident İlham Əliyev Gənclər siyasəti üzrə birinci qlobal forumun Azərbaycanda keçirilməsinin əhəmiyyətini qeyd etdi. BMT-nin baş katibi Pan Gi Munun foruma ünvanladığı videomüraciətini tədbirə beynəlxalq səviyyədə verilən önəmin ifadəsi kimi dəyərləndirən dövlətimizin başçısı Azərbaycanın artıq çox nüfuzlu beynəlxalq tədbirlərin keçirildiyi bir məkana çevrildiyini qeyd etdi, bunun ölkələr və xalqlar arasında əməkdaşlığın daha da genişləndirilməsi işinə xidmət etdiyini vurğuladı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Küveytin gənclər məsələləri üzrə dövlət naziri Şeyx Salman Sabah Salem əl-Hamud əl-Sabahı qəbul edib.***

***Qonaq Bakıda keçirilən Gənclər siyasəti üzrə birinci qlobal forumun işə başlaması münasibətilə Prezident İlham Əliyevi və bütün Azərbaycan xalqını təbrik etdi. Ölkəmizdə olmağından məmnunluq hissi keçirdiyini deyən Küveytin dövlət naziri dəvətə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirdi.***

***Prezident İlham Əliyev Küveytə səfərini və Küveyt rəhbərliyi ilə keçirdiyi görüşləri məmnunluqla xatırladı. Ölkələrimiz arasında mövcud olan əlaqələrin ikitərəfli əməkdaşlığın yaxşı nümunəsi olduğunu bildirən dövlətimizin başçısı Azərbaycan ilə Küveytin beynəlxalq təşkilatlar çərçivəsində də daim bir-birini dəstəkləməsinin və maraqlarını müdafiə etməsinin önəmini vurğuladı.***

* * *

***✓ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Xorvatiya Respublikası Baş nazirinin birinci müavini, xarici və Avropa işləri üzrə naziri Vesna Pusiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

***Görüşdə Azərbaycan ilə Xorvatiya arasında son illər ikitərəfli münasibətlərin siyasi, iqtisadi və digər sahələrdə dinamik inkişafından məmnunluq ifadə olundu, enerji sahəsində əməkdaşlıq üçün yaxşı imkanların olduğu bildirildi və bu baxımdan "Cənub" qaz dəhlizinin əhəmiyyəti vurğulandı.***

***Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq və qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.***

**AzərTAc-ın materialları əsasında**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Biz daha güclü, daha təsirli olmalıyıq və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə, Azərbaycanın ərazi bütövlüyünə əsaslanaraq həllinə nail olmaq üçün ürəkdən çalışmalıyıq

***Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə Fransaya işgüzar səfəri həm ölkə ictimaiyyətinin, həm də dünya kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olub. Bu səfər çərçivəsində Fransa rəhbərliyinin təşəbbüsü ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yollarının axtarılması üçün dövlətimizin başçısının Ermənistan Prezidenti Serj Sarkisyanla görüşməsi daha böyük maraq doğururdu.***



AzərTAc-ın verdiyi xəbərə görə, Fransa paytaxtında Yelisey sarayında Prezidenti İlham Əliyev ilə Fransa Respublikasının Prezidenti Fransua Ollandın görüşü keçirilib. Söhbət zamanı hər iki ölkənin rəhbəri Azərbaycan ilə Fransa arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafı ətrafında fikir mübadiləsi aparıblar. Enerji, aerokosmik sənaye, hərbi-texniki, təhsil, metro inşaatı və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu qeyd edilib. "Cənub" dəhlizi enerji layihəsinin reallaşması ilə bağlı maraqlı təkliflər səsləndirilib.

Eyni zamanda prezidentlərin görüşündə ölkəmiz üçün ağrılı problemlərdən olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların vəziyyəti, münaqişənin beynəlxalq hüquq normalarına əsasən, bununla bağlı indiyədək qəbul edilmiş sənədlərə uyğun ədalətli həlli məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Söhbət zamanı münaqişə ilə bağlı status-kvonun dəyişilməsinin, işğal olunmuş ərazilərin azad edilməsinin zəruriliyi xüsusi vurğulanıb.

Parisdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov, Pyer Andriye və Ceyms Uorlikin iştirakı ilə, sonra isə təkbətək görüşü olub.

Daha sonra Fransa Respublikasının Prezidenti Fransua Ollandın, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə birgə görüşü keçirilib.

Bu görüşün təfərrüatı və detalları barəsində, təbii ki, kütləvi informasiya vasitələrinə əlavə məlumat verilməyib. Ancaq erməni jurnalistlərinə bəyanatında öz bəlli ənənələrinə sadiq qalan Ermənistanın xarici işlər naziri Edvard Nalbandyan snayperlərin təmas xəttindən çəkilməsi və qarşılıqlı etimadın yaradılması ilə bağlı Azərbaycanın mövqeyini tənqid etməsinə Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun layiqli cavabı uzun çəkməyib. AzərTAc-a açıqlamasında o, Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanın Paris görüşünün nəticələri barədə səsləndirdiyi fikirlərə münasibət bildirib:

"Paris görüşündə gün ərzində danışıqlar bir neçə mərhələdə keçirilərək hələlik inkişafa nail olunmamış məsələlərə baxıldı.

Prezident İlham Əliyev bir daha Azərbaycanın prinsipial mövqeyini səsləndirərək qeyd etdi ki, münaqişənin sülh yolu ilə həlli üçün ilk növbədə, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasına nail olmaq lazımdır. ATƏT-in Minsk Qrupunun həmsədrləri tərəfindən də aydın şəkildə dəstəklənən və BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrində təsbit olunmuş Azərbaycanın bu tələbinin yerinə yetirilməsi ilə regionda təhlükəsizlik, sərhəd və kommunikasiyaların açılması və etimad quruculuğu tədbirləri üzrə məsələlərin razılaşdırılması üçün geniş imkanlar yaranacaq. Belə ki, Ermənistan qoşunları Azərbaycan ərazilərində olmadığı halda, snayperlərə ehtiyac qalmayacaq və əsaslı şəkildə hərbi insidentlər azalacaq".

Doğrudan da, Azərbaycan Prezidenti İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həllilə bağlı Azərbaycan dövlətinin prinsipial mövqeyini dəfələrlə yüksək tribunalardan səsləndirib və bu prinsiplərin dəyişməz olduğunu bəyan edib.

Bu günlərdə paytaxtımızda keçirilən Gənclər siyasəti üzrə birinci qlobal forumun rəsmi açılış mərasimində söylədiyi nitqində dövlətimizin başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə də toxunub.

Azərbaycan Prezidenti bununla bağlı deyib:

"Təhlükəsizlik məsələlərinə gəldikdə, biz, həmçinin yalnız gənc nəslə güvənirik. Sərhədlərimizi qoruyan, hazırda erməni təcavüzkarları ilə üzbəüz səngərdə dayanan gənc azərbaycanlılar Vətənini qoruyur. Erməni təcavüzü zamanı əziyyət çəkmiş insanlarımızın əksər hissəsi gənc nəslin nümayəndələri olub. Bu, regional təhlükəsizliyə ən böyük təhdiddir. Əfsuslar olsun ki, ötən əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlində Azərbaycan Ermənistanın silahlı təcavüzü, etnik təmizləmə siyasəti və tarixi torpaqlarımızı işğal etməsi ilə üzləşdi. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir, əsrlər boyu azərbaycanlılar bu bölgədə yaşayıblar. Ermənistanın dəstəklədiyi təcavüzkar separatizm bu vəziyyəti yaratdı. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təqribən 20 faizi 20 ildən çoxdur ki, Ermənistanın işğalı altındadır. Bir milyon insan həmin təcavüz nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılıb. Ermənilər tərəfindən Xocalı soyqırımı törədilib və 600-dən çox günahsız insan - onlardan 100-dən artıq qadın, 60-dan çox uşaq, - yalnız azərbaycanlı olduqlarına görə qətlə yetirilib.

Bu gün Ermənistandakı diktatorluq, kriminal rejim beynəlxalq və regional təhlükəsizliyə və sabitliyə ən böyük təhlükədir. Bütün beynəlxalq təşkilatlar mövqeyimizi dəstəkləyir. BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Bu qətnamələr kağız üzərində qalır və 20 ildən çoxdur ki, icra olunmur. ATƏT eyni qərarları qəbul edib. Avropa Parlamenti, Avropa Şurasının Parlament Assambleyası, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digərləri belə qərarlar qəbul ediblər. Onlar mövqeyimizi və Azərbaycanın ərazi bütövlüyünü tam dəstəkləyir. Dünyanın bütün ölkələri Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Lakin münaqişə hələ ki, praktiki baxımdan həll olunmayıb. Onun həlli beynəlxalq təşkilatların, xüsusən də BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrinə əsaslanmalıdır. Çünki BMT Təhlükəsizlik Şurasının qətnamələri icra edilməlidir. Görürük ki, bəzi hallarda onlar bir neçə gün ərzində icra olunur. Bizə gəldikdə isə onlar 20 ildən çoxdur kağız üzərində qalır.

Biz daha güclü, daha təsirli olmalıyıq və münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə, Azərbaycanın ərazi bütövlüyünə əsaslanaraq həllinə nail olmaq üçün ürəkdən çalışmalıyıq. Əminəm ki, o gün gələcək və biz öz doğma torpaqlarımıza - Dağlıq Qarabağa, eləcə də işğal olunmuş digər ərazilərə qayıdacağıq!"

**"Azərbaycan Ordusu"**

# Azərbaycanın gənc yəhudiləri Prezident İlham Əliyevin birinci qlobal gənclər forumunun iştirakçılarına məktubunda irəli sürdüyü ideyaları dəstəkləyirlər

***Yəhudi Xəbərlər Agentliyi (YXA) gənclər siyasətinə dair Bakıda keçirilən üçgünlük birinci qlobal foruma həsr olunmuş "Gilel" gənclər siyasətinə dair forumun ideyalarını dəstəkləyir" sərlövhəli məqalə dərc edib. Məlum olduğu kimi, forumun işində 160 ölkədən 700 nəfərdən çox nümayəndə, habelə Avropa Şurasının, UNESCO-nun, BMT-nin İnkişaf Proqramının nümayəndələri, BMT baş katibinin gənclər siyasəti üzrə elçisi iştirak edirlər.***

Tədbirin təşkilatçılarından biri olan Azərbaycan Gənclər və İdman Nazirliyindən Yəhudi Xəbərlər Agentliyinə bildiriblər ki, forum çərçivəsində 20-dən çox mövzu, o cümlədən təhsil, səhiyyə, ətraf mühit, gender bərabərliyi, hüquq problemləri müzakirə olunacaqdır. Birinci qlobal forumun keçirilməsində əsas məqsəd gənclər siyasəti sahəsində təcrübə mübadiləsi aparmaqdır. Bakı forumu XXI əsrdə gənclərin ən genişmiqyaslı beynəlxalq tədbiridir.

Azərbaycan Prezidenti İlham Əliyev forumun iştirakçılarına təbrik məktubu göndərib. Dövlət başçısı forumun nümayəndələrinə müraciət edərək bildirib ki, "gənclər siyasəti Azərbaycanın fəaliyyətinin prioritetidir".

Bakıda fəaliyyət göstərən "Gilel" yəhudi gənclər təşkilatının direktoru Boris Muşailov YXA-ya bildirib: "Azərbaycanın yəhudi oğlan və qızları gənclər siyasətinə dair birinci qlobal forumun məqsəd və vəzifələrini dəstəkləyirlər".

"Gilel"in fəalları deyiblər: "Azərbaycanda ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin müdrik siyasəti sayəsində ölkənin gənc vətəndaşlarının öz şəxsi potensialını uğurla həyata keçirməsi üçün hər cür lazımi ictimai-siyasi və sosial-iqtisadi şərait yaradılıb".

YXA-nın direktoru Boris Muşailov deyib: "Azərbaycanın gənc yəhudiləri Prezident İlham Əliyevin gənclər siyasətinə dair birinci qlobal forumun iştirakçılarına məktubunda irəli sürdüyü ideyaları dəstəkləyirlər.

Tibb, təhsil, mədəniyyət və idmanın inkişaf etdirilməsi, Azərbaycan xalqının çoxəsrlik qonaqpərvərlik və tolerantlıq ənənələrinin möhkəmləndirilməsi, sosial-siyasi sabitlik respublika gənclərinin, o cümlədən yəhudi oğlan və qızların maksimum intellektual və fiziki inkişafını təmin edir.

Gənclər üçün çoxsaylı dövlət proqramları, xüsusi fondun yaradılması Azərbaycanın gənc vətəndaşlarının öz şəxsi potensialını tam üzə çıxarmasına imkan verir".

Gənclər və İdman Nazirliyində YXA-ya bildiriblər ki, forumun işi gedişində gənclər siyasətinə yeni baxışlar öyrəniləcək, dövlətin gənclər siyasəti sahəsində yeni prinsipləri müəyyənləşdirən rəhbər sənədlər işlənib hazırlanacaq və qəbul olunacaq, gənclər siyasəti sahəsində müxtəlif ölkələrlə təcrübə mübadiləsi proqramları müəyyənləşdiriləcəkdir.

YXA-nın direktoru Boris Muşailov müsahibəsində deyib: "Gənclər gələcək liderlərdir, Azərbaycanın gənclər siyasətinin formalaşmasında heç də təkcə dövlət strukturları deyil, gənclər də iştirak edirlər.

Bu fenomen sayəsində Azərbaycan sosial inkişaf reytinqinə görə hazırda dünyanın 30 aparıcı ölkəsi sırasına daxildir və gənclər siyasətinə dair birinci qlobal forum bu prinsipial sosial-siyasi sahədə ölkəmizin liderliyini möhkəmləndirəcəkdir".

# Cəbhə bölgəsində yerləşən hərbi hissələrin hazırlıq səviyyəsi yoxlanılır





***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov müdafiənin ön xətti boyunca yerləşən hərbi hissələrin hazırlıq səviyyəsinin yoxlanılmasını davam etdiriblər.***

Oktyabrın 28-də Müdafiə Nazirliyinin rəhbərliyi gün ərzində birlik və birləşmələrin zabit heyətilə görüşərək, vəziyyətlə yerində tanış olub, qərargahlar tərəfindən tapşırıqların icrasını yoxlayıb, hərbi texnikanın döyüşə hazırlıq vəziyyəti, hərbi qulluqçuların gününün nizam qaydalarına uyğun fəaliyyəti və sosial-məişət şəraiti ilə maraqlanıblar.

Müdafiə Nazirliyinin rəhbərliyi aparılan irimiqyaslı yeni tikinti və əsaslı təmir-bərpa işlərinin vəziyyəti ilə tanış olaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tövsiyələrinə əsasən, bölgədə yerləşən hərbi hissələr üçün müasir standartlara cavab verən qərargah binaları, idarəetmə infrastrukturları, hərbi texnikalar üçün isidilən saxlanclar, o cümlədən şəxsi heyətin təhlükəsiz və rahat şəraitdə xidmətinin təşkili məqsədilə əsgər kazarmaları, yeməkxanalar, tibb məntəqələri, çörəkbişirmə sexi, mağazalar, idman şəhərcikləri və digər məişət obyektlərinin inşasına keyfiyyət baxımından xüsusi diqqət yetirilməsinə göstəriş verib. Bildirilib ki, əsgər kazarmaları otaq tipli olmaq şərtilə istirahət və psixoloji-ideoloji otaqlardan, həmçinin sanitar qovşaq, hamam-camaşırxana və qazanxanalardan ibarət olacaqdır.





Eyni zamanda hərbi qulluqçuların və onların ailə üzvlərinin rahatlığının təmin olunması, asudə vaxtlarının səmərəli təşkili məqsədilə dünya ordularının qabaqcıl təcrübəsinə əsaslanaraq tikilən hərbi şəhərciklərdə ailəvi və subay heyət üçün yaşayış binalarının, uşaq bağçalarının, məktəblərin, idman komplekslərinin, ailəvi istirahət mərkəzlərinin inşası da mühüm vəzifə kimi qarşıya qoyulub.

Görülən işlərin 2015-ci ilin yay ayları ərzində başa çatdırılması planlaşdırılır.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

## Müdafiə Nazirliyi ilə Türkiyənin Gülhanə Hərbi Tibb Akademiyası arasında əməkdaşlığın genişləndirilməsinə dair razılıq əldə olunub



***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, nazirliyin Tibb Baş İdarəsinin bir qrup zabit heyəti Türkiyə Respublikası Silahlı Qüvvələrinin Gülhanə Hərbi Tibb Akademiyasında təcrübə mübadiləsi aparıb.***

General-mayor Natiq Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti tibb sahəsində ikitərəfli əməkdaşlıq protokoluna bəzi əlavələr olunması məsələsini müzakirə edib. Danışıqlar nəticəsində akademiyaya müalicə, reabilitasiya və protezləşdirmə üçün göndərilən xəstələrin, o cümlədən təhsil alacaq tələbələrin və mütəxəssislərin sayının artırılması, orta tibb heyətinin - hərbi feldşer və tibb bacılarının hazırlanması, Müdafiə Nazirliyində çalışan mülki həkim və tibb bacılarının müxtəlif ixtisaslaşma və təkmilləşmə kurslarına ezam olunması məsələləri protokola əlavə edilib.

İlk dəfə olaraq, biomedikal mühəndislər, fiziki müalicə və reabilitasiya, idman təbabəti üzrə mütəxəssislərin hazırlanması, o cümlədən birgə elmi-praktik konfransların keçirilməsi, müştərək tibb jurnalının dərc olunması və Azərbaycan nümayəndə heyətinin Gülhanə Hərbi Tibb Akademiyasındakı seminarlara dəvət edilməsi məsələləri də müsbət həllini tapıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Təlimdə mətinləşən əsgər

***Bu yaxınlarda cəbhə bölgəsindəki "N" hərbi hissəsində olarkən minaatanların döyüş mövqeyində oldum. Hər şeydən öncə burada diqqətimi çəkən məqam postun ətrafında yaradılan təmizlik və səliqə-sahmandır. Əsgərlər bir nəfər kimi məşğələ yerində idi. Onlar minaatanların hissələrini, döyüş xüsusiyyətlərini öyrənirdilər.***

Təcrübəli komandirlər, peşəkar zabitlər tərəfindən keçirilən təlim-məşqlər əsgərlər tərəfindən dərindən mənimsənilir və onlar əldə etdikləri hərbi biliklərdən lazımınca yararlanırlar. Vaxtaşırı çöl-səhra şəraitində taktiki atış çalışmalarını yerinə yetirən bu heyətlər indi də məşqlərini davam etdirməklə peşə vərdişlərini artırırdılar.

Təlimdən öncə məşğələ rəhbəri baş leytenant Vüsal Baxışov özünü təqdim etdi. Zabit qeyd etdi ki, əsgərlər minaatan qurğusunun "döyüşə!" komandasından sonra hansı tapşırıqları necə yerinə yetirəcəklərini məşq edirlər.

- Düzdür, onlar bu komandanı yerinə yetirilməsinə çoxdan bələd olsalar da, bu çalışmanın təkrar keçirilməsi vacibdir, - dedi baş leytenant. - Təkrar biliyin anasıdır. Gerçəkdən bu deyimin nə qədər önəmli olduğunu əsgərlərimiz, minaatan heyətləri yaxşı bilir.

Zabit V.Baxışovla qısa tanışlıqdan məlum oldu ki, o, 2007-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Ayrı-ayrı hərbi hissələrdə xidmət edib. Həmişə üzərinə düşən vəzifənin məsuliyyətini dərindən hiss edib. Tabeliyində olan şəxsi heyətin döyüş və mənəvi hazırlığına ciddi önəm verib, qayğılarını yaxından öyrənib və həllinə səy göstərib.

Artıq bir ilə yaxındır ki, Vüsal minaatanların komandiridir. Tabeliyində olanların təlim-tərbiyəsinə ciddi önəm verdiyini məşğələ zamanı da hiss edirdim. Heyət üzvlərinin taktiki təlimdə özlərini fəal apardıqları və hər bir komandanı cəld, səhvsiz yerinə yetirmək istəyində olduqları bunu bir daha təsdiq edirdi.



Əsgərlər minaatan qurğusunu üç əsas hissəyə ayırıb səfər vəziyyətində dayandılar. Onlar növbəti komandanı gözləyirdilər. Çox keçmədi, heyət üzvləri mövqeyə doğru irəlilədilər və səngərə çatanda vaxt itirmədən minaatan qurğusunu döyüş vəziyyətinə gətirdilər.

Minaatan heyətinin komandiri çavuş Nahid Zeynalov bacarıqlıdır və üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir. Bunu zabit V.Baxışov bacarıqlı əsgərlərdən söz düşəndə bildirmişdi.

Çavuş N.Zeynalov beş ildən artıqdır ki, heyət komandiri vəzifəsində xidmət edir. Zaman-zaman onun tabeliyinə müddətli xidmət edən əsgərlər verilib. Nahid onlara minaatan qurğusu ilə bağlı mükəmməl hərbi biliklər aşılayıb. O, bu gün də üzərinə düşən tapşırığı yüksək səviyyədə yerinə yetirməkdədir.

Onun tabeliyində olan tuşlayıcı əsgər Eltun Haqverdizadə deyir ki, heyət komandirinin rəhbərliyi altında onlar minaatanın sirlərinə dərindən yiyələniblər. Tez-tez taktiki təlimlərdə olduğunu və müntəzəm olaraq atışlarda iştirak etdiyini söyləyən əsgər daha sonra deyir:

- Qarşımızda çox da uzaq olmayan məsafədə düşmən yerləşir. Biz hər an düşməndən müdafiə olunmaq üçün sayıqlığımızı artırırıq. Həmçinin, ermənilərə layiqli cavab vermək üçün bizdən həm məsuliyyət tələb olunur, həm də çeviklik. Biz minaatan heyəti olaraq öz silahımızla hər an düşməni susdurmağa hazırıq.

Heyət üzvlərindən Mustafa Məsiməliyev və Fariz Abbaslı da minaatanla bağlı müfəssəl bilik və bacarıqlara malikdirlər. Onlar dəfələrlə taktiki təlimlərdə iştirak ediblər. Bu səbəbdən də əsgərlər döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirirlər.

**Mayor
Bəxtiyar ƏLİYEV,
"Azərbaycan Ordusu"**

*Qabaqcıl təcrübə*

# Bacarıq hər addımda hiss olunur

***Hər dəfə ezamiyyətə gedəndə yazacağım mövzulardan biri də qabaqcıl təcrübədən olur. Ordumuzda isə qabaqcıl təcrübə ilə hər addımda rastlaşırıq. Çünki hərbçilərimiz qabaqcıl təcrübəyə böyük maraq göstərir və onu gündəlik xidmətlərində tətbiq etməyə çalışırlar.***

Budur, yenə də ön xətdə yerləşən hərbi hissələrdən birindəyəm. Erməni qəsbkarları ilə üz-üzə dayanıb torpaqlarımızı qoruyan zabit və əsgərlərlə görüşürəm. Onların üz-gözündən igidlik və cəsurluq yağır. Bu oğullar hər an torpaqlarımızı azad etməyə hazırdırlar. Hərbi xidmətə gəldiyi ilk günlərdən qabaqcıl təcrübəni mənimsəyərək öz döyüş hazırlığını artıran əsgərlərdən biri - İsrafil Fərid oğlu İsayev ilə söhbət edirəm. Xidmətdə fərqlənən bu əsgəri bizə kapitan Abdul Məlikov təqdim etdi. Bildirdi ki, əsgər İsrafil İsayev çox bacarıqlı və vətənpərvərdir. Torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanır. Bacarıq və təcrübə hər addımda özünü göstərir. Əsgər İsrafil İsayev hədəfləri dəqiq vurur, tapşırıqların öhdəsindən bacarıqla gəlir.

Hərbi xidmətini barıt qoxulu səngərdə yerinə yetirən əsgərlə söhbət edərkən öyrəndim ki, o, ali təhsilidir.

- Hələ kiçik yaşlarımdan ali təhsil almaq arzusu ilə yaşayırdım, - deyə əsgər söhbətə başladı. - Arzuma çatmaq üçün dərslərimi yaxşı oxuyur, məktəbdən sonra əlavə məşğələlərə qatılırdım. Orta təhsilimi uğurla başa vurdum. Tələb olunan qədər bal toplayıb Azərbaycan Dövlət Neft Akademiyasına daxil oldum. Energetika fakültəsini



bitirib bir sıra vacib elmi biliklərə yiyələndim. Sonra isə Vətən qarşısındakı övladlıq borcumu yerinə yetirmək üçün ordu sıralarına gəldim. Təlim və məşqlərdə fəal iştirak edərək hərbi bilikləri və qabaqcıl təcrübəni öyrəndim. Sınaq imtahanlarında yaxşı nəticə göstərib uğur qazandım. Qabaqcıl təcrübəni hərtərəfli mənimsədiyimə görə yüksək qiymət aldım.

Komandirlərimiz təlim-məşqlərdə, kurslarda fəal iştirak edərək qabaqcıl təcrübə qazanan əsgərlərə üstünlük verirlər. Mən öyrəndiklərimə görə zabitlərə minnətdaram. Bölüyümüzdə qabaqcıl təcrübənin öyrənilməsi və yayılması üçün tez-tez yarışlar keçirilir. Əsgərlər arasında belə yarışların keçirilməsi təqdirəlayiqdir. Çünki birinci yerə çıxmaq və müsbət nəticə göstərmək üçün əsgərlər qabaqcıl təcrübəni dərindən mənimsəməyə çalışırlar. Biz çalışırıq ki, bu günə kimi əxz etdiyimiz hərbi bilikləri, qabaqcıl təcrübəni xidmətdə ilk addımlarını atan gənc əsgərlərə də öyrədək.

Söhbətimiz başa çatdıqdan sonra əsgər İsrafil İsayev silahını sinəsinə sıxaraq barıt qoxulu səngərlərdə torpaqlarımıza keşik çəkməyə başladı. İsrafilin qardaşı İbrahim İsayev də ordu sıralarından bir müddət əvvəl tərxis olunub. İsrafil bu gün qardaşının xidmət yolunu şərəf və ləyaqətlə davam etdirir. İnanıram ki, xidməti vəzifəsinin öhdəsindən bacarıqla gələn, qabaqcıl təcrübəni dərindən mənimsəyən əsgər İsrafil İsayev torpaqlarımızın keşiyində həmişə ayıq-sayıq dayanacaq. Atası Fərid kişinin, həmçinin doğmalarının, əzizlərinin yanına alnıaçıq, başıuca qayıdacaqdır.

**Mayor
Vahid MƏHƏRRƏMOV,
"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***30 oktyabr 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 17 dəfə pozulub.

Erməni silahlı bölmələri Ağdam rayonunun Sarıcalı, Şuraabad, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Horadiz kəndləri yaxınlığında, həmçinin Xocavənd və Füzuli rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

***31 oktyabr 2014-cü il,***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 31 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Noyemberyan rayonunun Barekamavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Ağdam rayonunun Şuraabad, Novruzlu, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Horadiz, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Hərbi liseydə metro faciəsinin qurbanları anıldı

**Heydər ƏLİYEV:**
"... Tarix son illərdə Azərbaycan xalqını böyük sınaqlara çəkmişdir. Biz bu sınaqlardan çıxırıq, itkilər də, şəhidlər də veririk. Bu sınaqdan da çıxacağıq..."





***28 oktyabr 1995-ci il. Həmin gün paytaxtın "Ulduz" və "Nərimanov" metrostansiyaları arasında hərəkət edən qatarda qəflətən partlayış baş verdi. Bu dəhşətli partlayış barədə xəbərlər qısa zamanda bütün ölkəyə yayıldı. Hər kəs o dəhşətli faciənin ağrı-acısını anbaan yaşadı. Bu gün Bakı metropolitenində baş vermiş o qəzadan 19 il ötməsinə baxmayaraq, xalqımız hər il oktyabrın 28-də o faciə qurbanlarının xatirəsini yad edir.***

Qısa xatırlatma. O dəhşətli faciədə 300-ə yaxın insan həlak olur, 269 nəfər yaralanır, 400 nəfər isə odun-alovun pəncəsindən xilas ola bilir. Kütləvi insan tələfatı ilə nəticələnən qəzanın baş verdiyi günün səhəri ümummilli liderimiz Heydər Əliyevin televiziya və radio ilə xalqa müraciəti yayımlanır. "Ağır faciə olduğuna görə mən bu barədə xalqımıza məlumat verərək, eyni zamanda oktyabr ayının 29-30-nu ümumxalq matəmi elan etmişəm... Başımıza gəlmiş bu faciə münasibəti ilə xalqımıza başsağlığı verirəm, həlak olanların ailələrini bağrıma basıram, onlara Allahdan səbr diləyirəm..."

O qanlı hadisədə müdhiş gecənin qaranlığında insanların xilası naminə çarpışan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 4 nəfər hərbi qulluqçusu da qəhrəmanlıqla həlak olmuşdu. Liseyin zabiti, baş leytenant, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Babayev və "İgidliyə görə" medalı ilə təltif olunmuş kursantlar - Ruslan İsayev, Samir Məmmədov, Nicat Səfərov qəhrəmanlıq tariximizdə yeni səhifələr açdılar.

Hər il olduğu kimi, bu il də liseydə oktyabrın 28-də metro faciəsinin ildönümünə həsr olunmuş tədbir keçirildi. Tədbirdə hərbi liseyin rəisi general-mayor Mirzə Almasov, zabitlər, müəllim-kursant heyəti və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Tədbiri giriş sözü ilə liseyin müəllimi Yengibar Mizəfərov açdı və şəhidlərin, metro faciəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Sonra Dövlət himni oxundu.

Tədbirin əvvəlində nümayiş olunan video-çarx və kadrarxası səsləndirilən "O qatar çatmadı mənzil başına" şeiri iştirakçılarda kövrək anlar yaşatdı. Hərbi liseyin kursantları Rəvan Qasımzadə, Abbasqulu Əlizadə, Kənan Əzizov və Əli Əlizadənin ifasında səsləndirilən Məmməd Arazın "Ağlama", baş gizir Vüqar Şamiloğlunun "Şəhidlər" şeirləri tədbir iştirakçılarında böyük maraq doğurdu.

Milli Qəhrəmanlar İctimai Birliyinin sədri Mirbəşir Seyidov söz alaraq bildirdi ki, hərbi liseyin zabiti, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Babayev kimi oğullar ölmürlər, od-alov içində yaşamağı, omrü fəda etməyi bacardıqlarına görə Vətən belə oğulları əbədi olaraq öz xatirələrində yaşadır və yaşadacaqdır. Onun mərdliyi, şücaəti dillər əzbəri oldu, qısa ömür yolu isə gənc nəslə bir qəhrəmanlıq nümunəsidir.

Tədbirdə Südabə Sərvi və Aləmzər Sadıqqızının müəllifi olduqları "Əfsanəvi qəhrəman" kitabının təqdimatı da keçirildi.

Milli Qəhrəmanın atası Adil Babayev isə çıxışında bildirdi ki, Çingiz mənim yeganə oğul övladım idi. Onunla rahatlıq tapırıq ki, Çingiz tək öz valideynlərinin yox, bütünlükdə Azərbaycanın unudulmaz övladıdır. O, yüzlərlə insanı xilas edərək özünü qurban verdi. Çingiz əfsanəvi qəhrəmandır, belə qəhrəmanlıq yalnız Azərbaycan oğluna xas olan cəhətdir.

Sonda hərbi liseyin rəisi general-mayor M.Almasov şəhid ailələrinin üzvləri ilə görüşərək tədbirdə iştirak etdiklərinə görə onlara minnətdarlığını ifadə etdi.



**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Silah və texnika mövsümə hazırdır

## Silahlı Qüvvələrdə silah və texnikanın payız-qış mövsümünə keçidi vaxtında başa çatdırıldı

***Hərbi hissə və bölmələrin döyüşə hazır olması təkcə şəxsi heyətin taktiki-ixtisas hazırlığından deyil, eyni zamanda onlara həvalə olunmuş silah və texnikanın saz vəziyyətdə saxlanmasından, vaxtlı-vaxtında onlara lazımi texniki qulluq göstərilməsindən asılıdır. Ona görə bütün qoşun növlərində texniki hazırlığın bu vacib sahəsi daim diqqətdə saxlanılır. Silahlı Qüvvələrdə döyüş hazırlığı planına əsasən, hərbi hissə və birləşmələrdə silah və texnikanın payız-qış mövsümünə keçirilməsilə bağlı kompleks tədbirlər həyata keçirilib. "N" hərbi hissəsində ezamiyyətdə olarkən artilleriyaçılar tərəfindən görülən işlərin bilavasitə şahidi olduq.***



Öncə onu qeyd edim ki, silah və texnikanın payız-qış mövsümünə hazırlanması Müdafiə nazirinin və yuxarı komandanlığın əmrinə əsasən həyata keçirilir.

Səhər yerbəyeri zamanı hərbi hissə komandiri silah və texnikanın payız-qış mövsümünə keçirilməsinin gedişi ilə bir daha maraqlanmışdı. Zabit bölmələrin komandirlərinə döyüş texnikası və avtomobillərdə nizamlama işlərinin sürətləndirilməsilə bağlı konkret tapşırıqlar vermişdi. Eyni zamanda digər zabitlər də müşahidə cihazlarına, yağ və yanacaq filtrlərinə qulluğa, həmçinin ağır silahların ayrı-ayrı detallarının yağlanması və nizamlanmasına dair göstərişlər almışdılar. Məqsəd isə ondan ibarət idi ki, müəyyən edilmiş müddətədək hərbi hissədə bütün silah və texnikanı yeni mövsümə yüksək səviyyədə hazırlamaq mümkün olsun. İşlərin yekunlaşdırılması üçün bir neçə gün qalmışdı və işlər qrafikə uyğun aparılırdı.

Biz zabit Ramin Tağıyevlə birlikdə hərbi hissənin parkına baş çəkdik, artilleriya bölmələrinin mövsümə hazırlığı ilə yaxından tanış olduq. Qaynar iş vaxtının olmasına baxmayaraq, burada hərbçisayaq bir səliqə-sahman göz oxşayırdı. Toplar, qurğular və avtomobillər burada ayrılıqda cərgə ilə düzülmüşdü, əsgərlər ayrı-ayrı yerlərdə silah və maşınlara texniki qulluq göstərirdilər.

- Hərbi hissə komandirinin əmrinə müvafiq olaraq burada hələ öncədən görülən işlərin planı tərtib olunub, - zabit Rauf Şirinov bizimlə söhbətində dedi. - Həmin plan əsasında bölmələrdə plan-qrafik hazırlanıb və hərbi hissədə silah və texnikanın payız-qış mövsümünə keçirilməsini yüksək səviyyədə təşkil etmək üçün nümunəvi məşğələ keçirilib. Məşğələni aparan hazırlıqlı mütəxəssisimiz şəxsi heyətə mövsümi işlərin hansı ardıcıllıqla aparılmasını geniş izah edib. Oktyabrın 13-də bölmələrimiz hamılıqla silah və texnikanın yaz-yay mövsümünə hazırlanması işlərinə start verdi.

Rauf Şirinov qardaş Türkiyədə mükəmməl hərbi təhsil almış zabitlərimizdəndir və artıq 12 ildir ki, Silahlı Qüvvələrimizdə xidmət edir. Dəfələrlə döyüş və mənəvi-psixoloji hazırlıq sahəsində qazanılmış yüksək nəticələrə görə bölmə komandiri komandanlıq tərəfindən mükafatlandırılıb. Bundan əlavə komandanlığın təqdimatı ilə zabit Rauf Şirinov "Qüsursuz xidmətə görə" üçüncü dərəcəli və "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib. Həmçinin zabit Şirinovun şəkli hərbi hissənin Şərəf lövhəsini bəzəyir.

Öz peşəsini yetərincə mənimsəmiş zabit bölmədəki silah və texnikanın saz və döyüşə hazır vəziyyətdə olması üçün bilik və bacarığını əsirgəmir. Biz parka gələrkən o, silah və texnikanı yeni mövsümə hazırlayan hərbi mütəxəssislərin işinə nəzarət edirdi.

Mövsümi işlərə start veriləndən avtomobillər və döyüş texnikası həm "müayinə" olunur, həm də texniki qulluq göstərilərək saz vəziyyətdə sıraya qoyulur.

Ümumiyyətlə, hərbi hissədə, bizə verilən məlumata görə, texnikaya qulluq yekunlaşmaq üzrə idi. Mövsümi xidmətlə əlaqədar özüyeriyən artilleriya qurğuları və avtomobillər üzərində artıq təmizləmə, yağlama, nizamlama, köhnə və sıradan çıxmış detalların yeniləri ilə əvəz olunması işləri başa çatmışdı.

Şəxsi heyət həmçinin silahları tozdan, çirkdən təmizləyir, onların lülələrini və ayrı-ayrı detallarını yağlayırdılar. Mövsümi işlərin görülməsi eynilə sursata da aiddir və divizionun şəxsi heyəti ehtiyatla, texniki təhlükəsizlik qaydalarına riayət etməklə topların mərmilərini təmizləyib silir və saxlanc yerinə yığırdı.

- Təchizat baxımından problemimiz yoxdur, - zabit Rauf Şirinov deyir. - Ehtiyat hissələri ilə ehtiyacımıza əsasən və lazımi miqdarda təmin olunuruq. Ona görə bizə həvalə edilmiş texnikanın hamısı saz vəziyyətdədir. Mövsümi işləri də vaxtında yerinə yetirib başa çatdıracağıq, silah və texnika payız-qış mövsümündə istifadə üçün hazır ediləcək.

İşlərin burada nizamlı şəkildə aparılması üçün hər bölmə əvvəlcədən tərtib edilmiş plana uyğun şəkildə işlərini qurmuşdur. Hər gün görülən işlər plan-tapşırıq dəftərində qeydə alınır.

- Mövsümi işlərin yerinə yetirilməsində fəal iştirak etmiş hərbçilər yekunda komandanlıq tərəfindən mükafatlandırılacaq, - zabit Rauf Şirinov deyir. - Bununla belə öz vəzifəsinə vicdanla yanaşan, işini bacaran və keyfiyyətlə yerinə yetirən mütəxəssislərdən batareya komandiri kapitan Namiq Əzizovun komandiri olduğu bölməni qeyd etmək istəyirəm.



Hərbi hissədə aldığımız məlumata əsasən, silah və texnikanın payız-qış mövsümünə keçirilməsilə bağlı proses öz qaydasında gedir, texnikada aşkar edilən çatışmazlıqlar mütəxəssislər tərəfindən parkdakı postlarda aradan qaldırılırdı. Hər bölmə öz planına uyğun tapşırıqlarını ardıcıllıqla yerinə yetirməkdəydi və artıq bir çox işlər həyata keçirilmişdi.

- Bizim bölmənin şəxsi heyəti də silah və texnikaya son qulluq işlərini yerinə yetirir, - batareya komandiri kapitan Namiq Əzizov məlumat verir. - Şəxsi heyətimiz topların müxtəlif detallarını təmizləyib yağlamaqla məşğuldur. Sürücülər isə avtomobillərdə detalların yağlanmasını həyata keçirirlər.

Hamı burada öz işinə yetərincə məsuliyyətlə, vicdanla yanaşır, texniki qulluğu səliqə ilə yerinə yetirirdi. Əslində bu da təbiidir. Sabah bu texnikada onlar işləyəcək, döyüş tapşırığını yerinə yetirəcəklər.

Sonda görülən işlər komissiya tərəfindən yoxlanılacaq və hərbi hissə üzrə müvafiq əmr veriləcəkdir.

Zabit Rauf Şirinov mövsümə hazırlıq işlərinin yerinə yetirilməsi zamanı fərqlənmiş digər hərbçilərin də adlarını çəkdi. Onun sözlərinə görə, bütövlükdə şəxsi heyətin hamısı öz vəzifəsinə vicdanla və məsuliyyətlə yanaşır. Bununla belə, taqım komandirləri Tural Abdullayevin və Rabil Xəlilovun adlarını da qeyd etməyi unutmadı. Silah və texnikanın sazlanaraq sıraya qoyulmasında onların zəhməti böyükdür.

Hərbi kollektivdə gördüyüm məsuliyyət və peşəkarlıq, doğrusu, ürəyimcə oldu. Ixtisasından, gördüyü işlərin səviyyəsindən asılı olmayaraq, artilleriyaçılar da ordumuzun döyüş potensialının artırılmasına öz töhfələrini verməyə çalışırlar. Və təbii ki, bütün işlərin önündə kollektivdəki işgüzar atmosfer, sağlam mənəvi-psixoloji iqlim dayanır.

Yazı çapa hazır olanda öyrəndik ki, hərbi hissədə silah və texnikanın yeni mövsümə vaxtında hazırlanması təmin edilib.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## NASA-nın daşıyıcı raketi havaya qalxarkən partlayıb



Beynəlxalq kosmik stansiyaya iki tona yaxın yük çatdırmalı olan Antares daşıyıcı raketi Cignus kosmik daşıyıcısı ilə birgə ABŞ-ın Atlantik okeanı sahillərində yerləşən Vallops kosmodromundan havaya qalxan zaman partlayıb. Qəza zamanı xəsarət alan olmayıb. AzərTAc Ria-Novosti informasiya agentliyinə istinadla xəbər verir ki, Corc Vaşinqton adına Universitetin əməkdar professoru Con Loqsdon Ukrayna-Amerika daşıyıcı raketi olan Antaresin partlayışının mühərrikdə yaranmış nasazlıqla əlaqədar ola biləcəyini deyib. Mütəxəssisin fikrincə, qəzanın səbəbini dəqiq araşdırmadan Antaresin gələcəkdə istifadə olunub-olunmayacağını söyləmək çətindir. Partlayışdan sonra start meydançasına dəyən zərərin miqyasının hələ tam məlum olmadığını deyən Loqsdon Antaresin yalnız bu meydançadan buraxıla biləcəyini də qeyd edib.

## Fransa Ebola virusuna qarşı mübarizəyə 20 milyon avro ayırıb



Fransa Ebola virusuna qarşı mübarizəyə 20 milyon avro ayırdığını bəyan edib.

Bu barədə qərar Prezident Fransua Ollandın insan həyatı üçün təhlükəli virusa qarşı mübarizəyə Fransa tərəfindən rəhbərlik edən professor Jan-Fransua Delfresi arasında danışıqlardan sonra qəbul olunub. Vəsait Fransanın Ebola ilə mübarizə məqsədilə Qvineyada fəaliyyət göstərən iki mühüm klinkasında insanlara tibbi yardım üçün nəzərdə tutulub.

## Türkiyə jandarmı PKK-ya məxsus 15 avtomat silahı ələ keçirib



Türkiyə jandarmı ölkənin Şırnak vilayətində PKK üçün aparılan 15 Kalaşnikov avtomatını ələ keçirib.

Türkiyə KİV-də yayılan məlumata görə, silahlar iri yük avtomobilinin ayrı-ayrı yerlərində gizlədilibmiş.

Xatırladaq ki, iki gün əvvəl PKK yaraqlıları tərəfindən Türkiyə Silahlı Qüvvələrinə məxsus hərbi yük maşınından ələ keçirilmiş 400 kiloqram partlayıcı maddənin axtarışı davam etməkdədir.

## Ukrayna seçkilərində baş nazirin və prezidentin partiyaları liderdir



Ukrayna Mərkəzi Seçki Komissiyası oktyabrın 26-da ölkədə keçirilən növbədənkənar parlament seçkilərində səsləri hesablamağa davam edir.

Son məlumata görə, ölkənin baş naziri Arseni Yatsenyukun başçılıq etdiyi Xalq Cəbhəsi seçici səslərinin 22,16 faizini toplayıb. Ölkə prezidentinin siyasi qüvvəsi - "Pyotr Poroşenko bloku" 21,82 faiz səslə ikinci, Lvov meri Andrey Sadovoyun "Samopomiç" ("Özünəyardım") birliyi 11 faiz səslə üçüncü yerdədir. Sonrakı yerlər aşağıdakı kimi bölüşdürülüb: sabiq regional Yuri Boykonun "Müxalifət bloku" - 9,36 faiz, Oleq Lyaçkonun Radikal Partiyası - 7,45 faiz və Yuliya Timoşenkonun "Batkivşina" ("Vətən") Partiyası - 5,68 faiz.

## Braziliya İsveçdən qırıcı təyyarələr alacaq



İsveçin "Saab" müdafiə konserni ilə Braziliya hökuməti arasında bu ölkənin hərbi hava qüvvələri üçün "Jas 39 Gripen" tipli 36 qırıcı təyyarənin satılması barədə müqavilə imzalanıb.

Dəyəri təqribən 39,3 milyard İsveç kronuna bərabər (5 milyard dollardan çox) olan bu sifarişə görə Braziliya öz hərbi hava qüvvələri üçün texniki göstəriciləri təkmilləşdirilmiş yeni tipli "Gripen NG - next generation" (yeni nəsil) qırıcı təyyarələr alacaq. Təyyarələrin Braziliyaya göndərilməsi 2019-cu ildə başlanacaq və 2024-cü ilə qədər davam edəcək.

## Böyük Britaniya Əfqanıstandakı 13 illik döyüş missiyasını başa vurdu



Böyük Britaniya NATO-nun kontingenti tərkibində Əfqanıstandakı 13 illik döyüş missiyasını başa çatdırdı. AzərTAc Euronews telekanalına istinadla xəbər verir ki, Britaniya ordusunun Əfqanıstandakı son hərbi obyekti olan Gilmənd əyalətinin Kemp-Bestion bazasında bu ölkənin, həmçinin ABŞ və NATO-nun bayraqları endirilib. ABŞ və digər müttəfiq ölkələrin əsgərləri də hərbi obyekti tərk edərək nəzarəti əfqan ordusuna veriblər.

Bununla belə, Kabil hərbi akademiyasında yüzə yaxın britaniyalı təlimatçının qalacağı bildirilir.

Rəsmi məlumatlarda 13 il ərzində Əfqanıstanda 453 britaniyalı hərbçinin həlak olduğu, mindən çoxunun isə yaralandığı qeyd edilir. Müharibənin getdiyi ən ağır dövrdə bu ölkədə 9,5 min britaniyalı hərbçi olub.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Şəmkir şəhərində "Əsgər Şöhrəti" bayramı keçirilib



**Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Şəmkir rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Şəmkir şəhər Dövlət Bayrağı meydanında "Bu gün gərək hər anımız Vətən desin!" devizi altında "Əsgər Şöhrəti" bayramı keçirilib.**

Bayram tədbirinin iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə əklil və çiçəklər qoyaraq onun xatirəsini böyük ehtiramla yad ediblər.

Müdafiə Nazirliyinin zabiti, əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə hazırlanan bu tədbiri müəllif açaraq bayram iştirakçılarını təbrik edib. O, işğal olunmuş torpaqların azad edilməsi üçün Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən görülən tədbirlərdən, bu sahədə Vətənin hər bir övladının rolundan danışıb.

Bayram tədbirində Azərbaycanın Milli Qəhrəmanı general-leytenant Rövşən Əkbərov çıxış edərək Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrikini, polkovnik Elşad Əbilov isə Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun təbrik teleqramını mərasim iştirakçılarının diqqətinə çatdırıblar.

Daha sonra Şəmkir rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Sahibə Qafarova çıxış edərək mərasimə toplaşan hərbi qulluqçuları, rayon ictimai təşkilatlarının üzvlərini, şəhid analarını, müharibə veteranlarını "Əsgər Şöhrəti" bayramı münasibəti ilə təbrik etmiş və tədbirin təşkilində Müdafiə Nazirliyinin xidmətini xüsusilə qeyd etmişlər.




Tədbirin əvvəlində müharibə veteranları, xidmətdə fərqlənən hərbi qulluqçular, xüsusi təyinatlı təhsil müəssisələrinin əslən Şəmkir rayonundan olan kursantları, gənc "Cəsurlar" və "Şahinlər" qoşun növlərinin bayraqları ilə birlikdə böyük izdihamın qarşısından keçiblər.

Sonra Azərbaycan Akademik Milli Dram Teatrının, Gəncə Dövlət Dram Teatrının, Silahlı Qüvvələrin Mahnı və Rəqs ansamblının və Gəncə Qarnizonu Zabitlər Evinin bədii kollektivlərinin iştirakı ilə teatrlaşdırılmış kütləvi mərasim başlayıb.

Mərasimdə Azərbaycanın hərbi şöhrət tarixindən bəhs edilərək qəhrəmanlıq salnaməsi vərəqlənib. Dədə Qorqud, Cavad xan, Molla Pənah Vaqif, Xurşudbanu Natəvan, Molla Vəli Vidadi, ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədov və digərlərinin obrazları aktyorların ifasında məharətlə canlandırılıb, vətənpərvərlik marşı, mahnı və rəqsləri ifa edilib.

"Azəri türkləri" marşının sədaları altında meydana daxil olan Cümhuriyyət Ordusunun piyada və süvariləri qiyafəsində olan əsgərlər tamaşaçılar tərəfindən alqışlarla qarşılanıblar. Xüsusi təyinatlılar da öz məharətlərini göstəriblər. Tədbirdə iştirak edən şəhid anaları döyüş postlarına yola düşən bir qrup əsgərə xeyir-dua verərək, onları yola salıblar.







Sonra Şəmkir rayonu ərazisində şəhid adını daşıyan təhsil müəssisələrinin bir qrup müəllim və şagirdi məşəllərlə əhatə olunmuş meydandan keçərək şəhidlərin xatirəsini ehtiramla yad ediblər.

Tədbirin rəsmi hissəsinin sonunda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin hərbi libaslı portreti meydana gətirilərək cəbhə bölgəsində döyüşlərdə fərqlənən bir qrup hərbi qulluqçularla görüşdəki nitqindən sitat səsləndirilib, Azərbaycan xalqının və ordusunun hər an Ali Baş Komandanın əmrinə hazır olduqları bildirilib.

Sonda Şəmkir sakinlərinin öz şəxsi bağlarından topladıqları meyvə ilə dolu avtomobil birbaşa çətin dağlıq şəraitdə yerləşən bölmələrin şəxsi heyətinə göndərilib.

Mərasimdən sonra Gənclər Evində "Ordu ilə xalqın birliyi sarsılmazdır!" devizi altında musiqili-ədəbi məclis keçirilib.

Günün ikinci yarısında "Əsgər Şöhrəti" bayramı hərbi hissədə yerləşən Heydər Əliyev Mərkəzinin klubunda respublikanın xalq artisti İlhamə Quliyevanın iştirakı ilə keçirilən konsert proqramı ilə davam etdirilib.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, Şəmkir şəhərində keçirilən "Əsgər Şöhrəti" bayramı bir daha ordu ilə xalqın monolit birliyini nümayiş etdirib.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

**P.S.** *Tədbirdən hazırlanmış geniş material qəzetimizin növbəti sayında oxucuların diqqətinə təqdim ediləcək.*

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## 2018-ci il dünya çempionatının emblemi təqdim edilib




2018-ci ildə Rusiyada keçiriləcək futbol üzrə dünya çempionatının loqosunun təqdimat mərasimi keçirilib. AzərTAc xəbər verir ki, FİFA prezidenti Yozef Blatterin də qatıldığı mərasimdə yerli idman funksionerləri, futbol ulduzları, Rusiyanın tanınmış simaları da iştirak edib. Canlı yayımda təqdim olunan loqoda dünya kuboku əks olunub. Mundialın rəmzini birinci olaraq peykdə olan kosmonavtlar nümayiş etdirib.

## Polşada keçirilən dünya çempionatında iki karateçimiz fərqlənib



Polşanın Şeçin şəhərində yeniyetmələr arasında karatenin WUKF (Dünya Karate-do Federasiyası Birliyi) versiyası üzrə dünya çempionatı keçirilib. AzərTAc xəbər verir ki, turnirdə Azərbaycan millisi də mübarizə aparıb. Mundialda milli komandamızın üzvü Məmməd Məmmədov gümüş, Fərid Ağayev isə bürünc medala sahib olub.

## Şahmatçılarımız Avropa çempionatında beş medal qazanıblar



Batumi şəhərində 8-18 yaşlı oğlan və qızlar arasında şahmat üzrə Avropa çempionatına yekun vurulub. AzərTAc xəbər verir ki, çempionatda Avropanın 45 ölkəsindən 1000-ə yaxın şahmatçı qələbə uğrunda mübarizə aparıb. Azərbaycanın gənc şahmatçıları 5 medal (2 qızıl, 1 gümüş və 2 bürünc) qazanıblar. On səkkiz yaşlı qızlar arasında 9 oyundan 8 xal toplayan Gəncə şahmat məktəbinin yetirməsi Ülviyyə Fətəliyeva çempionatın qurtarmasına 1 tur qalmış qızıl medalı özünə təmin edib. On yaşlı qızlar arasında sumqayıtlı Mələk İsmayıl çempion olmaq üçün son turda 1-ci yerdə gedən Estoniya şahmatçısına qalib gəlməli idi, o gərgin mübarizədə buna nail olub.

## Millimiz Avropa çempionatının növbəti mərhələsinə vəsiqə qazanıb




Belçikanın Eisden şəhərində 17 yaşadək futbolçulardan ibarət komandalar arasında Avropa çempionatının ilkin seçmə mərhələsində Azərbaycan yığması son oyununu keçirib.

AzərTAc xəbər verir ki, futbolçularımız Bosniya və Herseqovina yığması ilə qarşılaşıb. Oyun 1:1 hesabı ilə başa çatdığı üçün və hər iki komandanın topladığı xallar bərabər olduğuna görə, turnir cədvəlində yığmaların mövqeyinin müəyyənləşdirilməsi məqsədilə oyunsonrası penalti seriyası təyin olunub. On bir metrlik zərbələri daha dəqiq vuran Bosniya və Herseqovina yığması 4:3 (ümumi nəticədə 5:4) hesabı ilə qalib gəlib. Yığmamız ilkin seçmə mərhələsində ən yaxşı göstəriciyə malik üçüncü yeri tutmuş komandalardan biri kimi növbəti mərhələyə vəsiqə qazanıb.

## Yeniyetmələr arasında güləş üzrə seçim turniri davam edir



Helsinki Olimpiya Oyunlarının gümüş mükafatçısı Rəşid Məmmədbəyovun xatirəsinə həsr olunmuş yeniyetmələr arasında güləş üzrə respublika seçim turnirinin final mərhələsi davam edir.

Gərgin idman mübarizəsi şəraitində keçən turnirdə sərbəst güləş üzrə yarışlarda Ravil Babazadə (76 kq), Orxan Həsənov (85 kq), Timur Bazayev (100 kq, Rusiya), yunan-Roma güləşçiləri arasında Elşad Məmmədov (42 kq), Zaur Nuriyev (46 kq), Pərvin Abdullayev (50 kq) və Elvin Mustafayev (54 kq) fəxri kürsünün ən yüksək pilləsində yer alıblar.

**Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU**

# Xarici hərbi xronika

## Çoxməqsədli Yak-58 təyyarəsi

Qazaxıstan-Rusiya "Yak Alakon" birgə müəssisəsi modernləşdirilmiş "Yak-58" təyyarəsinin ilk nümunəsini istehsal etməyi planlaşdırıb. Bu haqda "İnterfaks-ABN" müəssisəsinin prezidenti Aleksandr Toporov məlumat verib. Onun sözlərinə görə, ikinci modernləşdirilmiş "Yak-58" təyyarəsinin hazırlanması 2015-ci ilin ikinci mərhələsində başa çatacaq və sınaq proqramı üzrə maşının 100 uçuşu həyata keçiriləcək. Təyyarədə alman şirkətinin istehsal etdiyi 490-500 at gücündə RED AO3V12 boru-dizel mühərriki quraşdırılacaq. Bu da onun texniki xüsusiyyətlərini müəyyən qədər artırmağa, uçuş uzaqlığını 2200 kilometrə çatdırmağa imkan verəcək. Daha sonra təyyarənin inşasında, sistemlərində yeniliklər ediləcək. Verilən məlumata görə, yaxın vaxtlarda belə təyyarənin istehsalı üçün genişmiqyaslı maliyyələşmə də gözlənilir.

## 7500 ədəd Mi-817 vertolyotu istehsal edilib

"Rusiya vertolyotları" Holdinqinə məxsus Kazan vertolyot zavodu Mi-817 nəslindən olan 7500-cü yubiley vertolyotunu istehsal edib. Mi-8MTB-5 hərbi-nəqliyyat təyyarəsi miqavilə əsasında Rusiyanın Hərbi Hava Qüvvələrinə təqdim ediləcək. İndiyə qədər istehcal edilmiş 12 min vertolyot dünyanın əksər ölkələrinə ixrac edilib. Mi-8MTB çoxməqsədli vertolyotdur. Onun bazasında mixtəlif təyinatlı maşınlar istehsal edilir. Mu-8MTB-5 - hərbi-nəqliyyat vertolyotudur, yüklərin və silahların daşınmasında, həmçinin xilasetmə əməliyyatlarında istifadə olunur. Daha bir modifikasiyası isə Mi-172 sərnişin təyyarəsidir.

Mi-817 vertolyotları dəfələrlə vacib və çətin obyektlərin ucaldılmasında, keçirilən müxtəlif qış və yay Olimpiya oyunlarının gedişində, təhlükəsizliyin təmin edilməsində, kütləvi yanğın hadisələri zamanı və c. istifadə olunub. Bu vertolyotlar müxtəlif şəraitdə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

**Hazırladı:
Svetlana NƏSİBQIZI**

# Hərbi xidmət müddətində test

*Təkrar biliyin anasıdır. Bu mənada bəzi bilgiləri elə hərbi xidmət müddətində təkrarlamaq imkanınız var. Bu imkanı Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ilə "Azərbaycan Ordusu" qəzetinin "Hərbi xidmət müddətində test" birgə layihəsi verir. Testlər həftədə bir dəfə təqdim olunacaq. Növbəti həftəyə kimi göndərilən cavablar qiymətləndiriləcək.*




*Gecikənlər poçt göndərişinin üzərindəki möhürə əsasən nəzərə alınacaq.*

*Müsabiqəyə ilin sonunda, Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində yekun vurulacaq. Həmin müddətdə ən çox bal toplayan əsgərlər mükafatlandırılacaq:*

**I yer - 150 AZN**
**II yer - 100 AZN**
**III yer - 50 AZN**

**"Azərbaycan Ordusu"**

***1. Silahlı Qüvvələrimizdə hərbi qulluqçuların ümumi vəzifələrini, onların arasındakı qarşılıqlı münasibətləri, alayda (briqadada) və onun bölmələrində daxili qayda-qanunları və həmçinin əsas vəzifəli şəxslərin xidmət vəzifələrini müəyyənləşdirən nizamnamə hansıdır?***

a) Daxili Xidmət Nizamnaməsi
b) İntizam Nizamnaməsi
c) Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsi
d) Sıra Nizamnaməsi

***2. İntizam Nizamnaməsinə əsasən, təşəkkür elan etmək və özləri tərəfindən əvvəllər verilmiş intizam cəzalarını götürmək hüquqları kimə aiddir:***

a) Taqım komandirinin müavininə
b) Bölük komandirinə
c) Taborun qərargah rəisinə
d) Alay (briqada) komandirinə

***3. Azərbaycan Ali Hərbi Məktəbinə ümummilli liderimiz Heydər Əliyevin adı neçənci ildə verilib?***

a) 2004
b) 2005
c) 2006
d) 2007

***4. Yelizovetpol hansı şəhərin adı olub?***

a) Sumqayıt
b) Mingəçevir
c) Gəncə
d) Bakı

***5. "Cavanşir" pyesinin müəllifi kimdir?***

a) M.Rahim
b) M.Hüseyn
c) S.Vurğun
d) S.Rüstəm

***6. B.Vahabzadə hansı müqaviləyə poema həsr edib?***

a) Kürəkçay
b) Türkmənçay
c) Gülüstan
d) Versal

***7. Nüşabə haranın hökmdarı olmuşdu?***

a) Şirvanşahlar
b) Bərdə
c) Gəncə
d) Şəki

***8. N.Gəncəvi hansı əsərində Nüşabə ilə İsgəndəri qarşılaşdırır?***

a) "Yeddi Gözəl"
b) "İsgəndərnamə"
c) "Xosrov və Şirin"
d) "Sirlər xəzinəsi"

***9. Hansı musiqi aləti daha qədimdir?***

a) Ney
b) Qopuz
c) Saz
d) Tar

***10. Hansı film Qarabağ müharibəsindən bəhs etmir?***

a) "Ağ atlı oğlan"
b) "Biz qayıdacağıq"
c) "Bir cənub şəhərində"
d) "Fəryad"

***11. Şifahi xalq ədəbiyyatının bu janrlarından biri daha qədimdir:***

a) Bayatılar
b) Tapmacalar
c) Əmək nəğmələri
d) Oxşamalar

***12. Azərbaycan dilində ilk dəfə "Leyli və Məcnun" mövzusunda poemanı kim yazıb?***

a) İzzəddin Həsənoğlu
b) Məhəmməd Füzuli
c) İmadəddin Nəsimi
d) Şah İsmayıl Xətai

***13. "Poçt qutusu" hekayəsinin müəllifi kimdir?***

a) Ə.Haqverdiyev
b) C.Məmmədquluzadə
c) S.S.Axundov
d) N.B.Vəzirov

***14. "Xarqo" təxəllüslü partizan kim olub?***

a) Ə.Cəbrayılov
b) C.Həkimli
c) M.Hüseynzadə
d) Q.Məmmədov.

Baş gizir Ağayev Tərlan Allahverdi oğluna 2012-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 335
Nüsxə 4570